**Səfir Vada Cüniçinin Şəki səfəri**

14-15 aprel tarixlərində səfir Vada Cüniçi Şəki şəhərində rəsmi səfərdə olmuşdur. Səfər çərçivəsində Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubovla görüş zamanı Şəkidə həyata keçirilmiş "Ot kökləri və İnsan Təhlükəsizliyi" qrant proqramı layihələrinin nəticələri və gələcək planlar, bundan sonrakı iqtisadi mübadilə və insan resurslarının yetişdirilməsində qarşılıqlı əməkdaşlıq və "2022-ci il Yaponiya-Azərbaycan Dostluq İli" tədbirləri ilə dostluq əlaqələrinin inkişaf perspektivləri haqqında müzakirə aparılmışdır.

Səfər çərçivəsində səfir "Ot kökləri və İnsan təhlükəsizliyi" qrant proqramı çərçivəsində bərpa işləri aparılmış 23 saylı uşaq bağçası, Şəki şəhər Kimya Biologiya təmayüllü Respublika liseyi, Azəripək MMC və digər məkanları da ziyarət etmişdir.








